Respublika.- 2019.- 31 avqust.

# Azərbaycanda dövlət idarəçiliyinin tarixi mərhələləri haqqında monoqrafiya

**Elmi və nəzəri bilikləri özündə cəmləşdirən kitablar tarixi mənbə kimi dəyərlidir, eyni zamanda ağlın, təfəkkürün, həyata və cəmiyyətə baxışın, təhlilin, fəlsəfi və adi fikirlərin ifadəsi kimi çox mühüm əhəmiyyət kəsb edir. Kitab həm də bələdçidir, o insana yeni ideyalar və tükənməz bir ruh verir. Kitab, eyni zamanda məlumat mənbəyidir, duyğu və düşüncələrin, həyat həqiqətlərinin, cəmiyyətin, tarixi hadisələrin məcmusudur. Uzun illər prokurorluq və məhkəmə orqanlarında çalışan, təcrübəli hüquqşünas Rəşid Hüseynovun "Azərbaycanın dövlət idarəçiliyi: tarix və müasirliyin vəhdəti" kitabı gərgin, səmərəli və elmi axtarışların məhsuludur. Yeri gəlmişkən qeyd edək ki, bu dəyərli və qiymətli monoqrafiya Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə ithaf edilib.**

Müəllif bu fundamental əsərində ilk dəfə olaraq bütöv Azərbaycan (Şimali və Cənubi Azərbaycan) ərazisində olan dövlətlərin quruluşu və təhlükəsiz yaşam prinsipləri, o cümlədən Azərbaycanda dövlət idarəçiliyinin mərhələləri elmi səviyyədə tədqiq edilib. Kitabda qədim dövrlərdə dünyada baş verən proseslərin fonunda Azərbaycanda dövlətlərin yaranması, idarə edilməsi, eyni zamanda, son üç yüz ildə Azərbaycanda müstəqil dövlət qurmaq uğrunda aparılan mübarizə, onun tarixi-nəzəri aspektləri, tarixin müxtəlif mərhələlərində mövcud olmuş dövlətlərin idarə edilməsi faktlar və arqumentlərlə təhlil edilib və oxucuya bu qlobal proses haqqında dolğun məlumat verilir.

Azərbaycanın dövlətçilik tarixini dünyada baş verən proseslərin fövqündə və həmin prosesləri indiki zamanda dövlətlərin idarə olunmasında qarşıya çıxan əsas məsələlərdən biri qloballaşma və informasiyalı cəmiyyətin tələblərinə uyğun tədqiq edən müəllif əsas diqqəti hüquqi-normativ əsasların cəmiyyətə adaptasiya edilməsinə yönəldir.

İdarəetmə haqqında müxtəlif nəzəriyyələri və təcrübəni hərtərəfli tədqiq edən müəllifə görə dünyanın qloballaşma dövründə cəmiyyətin səviyyəsi insanların şüur səviyyəsi, əxlaq səviyyəsi ilə tənzimlənir və azadlığın mövcud olduğu cəmiyyətlərdə demokratik dəyərlər müstəsna rola malikdir. Bu barədə kitabda dünya şöhrətli alimlərin, hüquqşünasların, tarixçilərin, filosofların, iqtisadçıların, sosioloqların fikirləri xronoloji ardıcıllıqla diqqətə çatdırılır. İdarəetmədə ümumi nəticəni belə xarakterizə etmək mümkündür: cəmiyyət ilk növbədə insanların ideyalarını, əqidə və hisslərinin məcmusunu özündə ehtiva edən bir tamdır və onun özünəməxsus inkişaf qanunları var. Sonra müəllif qeyd edir ki, idarəetmə bir elm kimi daim yenilənir, elmi idarəetmə məktəbinin əsası qanunlarla, yeni nəzəriyyələrlə, yeni baxışlarla təsbit edilir.

Kitabda bu günə qədər Azərbaycanda idarəetmə nəzəriyyəsinə dair müxtəlif elmi tədqiqatlar aparıldığı haqqında geniş məlumat verilir və qeyd olunur ki, Azərbaycan dilində dövlət idarəçiliyinin aspektlərini işıqlandıran bir çox əsərlər var. Akademik Ramiz Mehdiyevin bu istiqamətdəki araşdırmaları, əsərləri tam şəkildə dövlət idarəçiliyini və onun spektrlərini əhatə edir.

Azərbaycanda dövlətçilik ənənələri çox qədim dövrlərdən başlayır. Kitabda bu barədə çox geniş və elmi araşdırmalar diqqəti xüsusilə cəlb edir. Qeyd olunur ki, ilk dövlətimiz e.ə. 3-cü minilliyin birinci yarısında meydana gəlmiş Aratta dövlətidir. Sonra mövcud olmuş dövlətlərin ərazisi ilə birlikdə xronoloji ardıcıllıqla Lullubi, Kutium (Qutium),Turukki və Su tayfalarının dövləti, e.ə. 590-cı ilə kimi mövcud olmuş Manna dövləti, e.ə. 4-cü əsrdə yaranmış Azərbaycan (Atropatena) dövləti və nəhayət Albaniya dövlətinin idarəetmə formaları, quruluşu geniş təhlil edilib.

Kitabda 1747-ci ildən Azərbaycanın xanlıqlara parçalanması dövrü əhatəli şəkildə təhlil olunur, onların Rusiyaya birləşdirilməsi, sonra Şərqdə ilk demokratik Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və nəhayət 1920-ci ildə Azərbaycan Sosialist Respublikasının yaradılması, sözün əsl mənasında, dövlətçiliyimizin ziddiyyətlər burulğanında, dünyanı idarə edən güclərin təsiri altında çarpışması tarixi məxəzlərlə və müəllifin aydın hiss olunan ürək ağrısı ilə diqqətə çatdırılır.

Tarixin səhifələrində şərəfli yer tutan, milli dövlətçiliyimizin xilaskarı, dünya şöhrətli siyasətçi, azərbaycançılıq ideyasının banisi, ümummilli lider Heydər Əliyevin dövlət və xalq qarşısındakı fədakar xidməti kitabda geniş təhlil olunur, təqdir olunur və bu titanik fəaliyyətin hüquqi və fəlsəfi mahiyyəti açıqlanır.

Kitab 4 fəsildən ibarətdir. Elmi araşdırmalarla zəngin olan birinci fəsildə idarəetmə anlayışı, onun özəllikləri və funksiyaları, idarəçilik elminə nəzəri yanaşmalar, dövlət idarəçiliyi anlayışı, funksiyaları və vəzifələri, habelə vətəndaşların dövlətin idarə olunmasında iştirakı, şəxsiyyətin idarəetmədə rolu, bundan başqa, qloballaşmanın idarəetmədə ifadəsi və informasiya cəmiyyətinin idarəetmə paradiqması zəngin faktlarla geniş şərh olunur.

İkinci fəsildə Azərbaycanda dövlət idarəçiliyinin tarixi mərhələləri çox maraqlı, obyektiv faktlarla oxucuların diqqətinə çatdırılır. Burada idarəçilik elminin həm tarixi, həm də müasir fəlsəfi, sosioloji, politoloji və hüquqi aspektlərdə izahı mühüm yer tutur. Eyni zamanda, həmin fəsildə dövlət idarəçiliyi nəzəriyyəsində üç yanaşmanın əsas olduğu bildirilir: hüquqi yanaşma, siyasi yanaşma, idarəçilik yanaşması. Bundan başqa, müəllif müasir idarəetmə aparatını üç pilləyə ayırır ki, bunlar dövlət idarəetmə, regional idarəetmə və yerli özünüidarəetmə orqanlarıdır və onların elmi metodiki izahını verir.

Kitabın üçüncü fəsli Azərbaycanda dövlət idarəetmə sisteminin müasir vəziyyətindən bəhs edir. Müasir Azərbaycanın banisi ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti və ölkəmizdə yeni idaəetmə mərhələsinin başlanması hüquqi və elmi baxımdan geniş təhlil olunur, maraqlı və tarixi faktlarla zəngin olan bu fəsildə hakimiyyətin bölünməsi, qanunvericilik hakimiyyəti, habelə, yerli özünüidarə, qeyri-hökumət təşkilatları və regional siyasətin idarəetməyə təsiri haqqında geniş məlumat verilir. 1993-cü ilin əvvəllərində Azərbaycan çox təzadlı və qorxulu bir mərhələni yaşayırdı. Məhz, belə ağır bir vəziyyətdə Azərbaycan xalqı müstəqilliyi təhlükə altına düşən dövlətin idarə olunmasını Heydər Əliyevə etibar etdi. Həmin vaxt ölkədə hakimiyyətsizlik, xaos, anarxiya və hərc-mərclik hökm sürürdü, sənayenin, kənd təsərrüfatının tənəzzülə uğraması, ölkədə separatçılıq əhval-ruhiyyəsinin artması, cinayətkar meyillərin güclənməsi, siyasi qruplaşmalar arasında hakimiyyət üstündə silahlı toqquşmaların artması halları ölkəni məhvə aparır, xalq ilə hakimiyyət arasında uçurum gündən-günə dərinləşirdi. Bir tərəfdən də Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsi, kütləvi insan itkisi, humanitar fəlakət, məcburi köçkün problemi yaşanırdı. Yalnız dahi şəxsiyyət və görkəmli dövlət adamı Heydər Əliyevin uzaqgörən siyasəti, böyük təcrübəsi və sözün əsl mənasında, onun fədakarlığı sayəsində Azərbaycan bütün təhlükələrdən xilas oldu, ölkə inkişaf və tərəqqi yoluna çıxdı. Bir sözlə, Heydər Əliyevin dövlətçilik təcrübəsi haqqında kitabda geniş məlumatlar verilir, onun fəaliyyəti elmi şəkildə təhlil olunur, Azərbaycanın əldə etdiyi uğurlardan ətraflı söz açılır.

Kitabın dördüncü fəslində qloballaşma şəraitində Azərbaycanda vitse-prezidentlik institutunun təşəkkülünün sosial-fəlsəfi və hüquqi aspektləri elmi və hüquqi cəhətdən izah olunur. Habelə,vitse-prezidentlik institutu dünya təcrübəsi və dövlət idarəçiliyinin təkmilləşməsi istiqamətində çox dəyərli təhlillər aparılır, o cümlədən Azərbaycanda vitse-prezidentlik institutu müstəqil dövlətçiliyin təkamülünə və idarəetmədə islahatların aparılmasına, eyni zamanda, insan kapitalının inkişafına, idarəetmənin təkmilləşdirilməsinə güclü təkan verdiyi fəlsəfi-hüquqi baxımdan analiz edilir.

Monoqrafiyada xüsusi qeyd olunur ki, vitse-prezidentlik institutunun Azərbaycan idarəetmə modelinə vaxtında daxil edilməsi çox əhəmiyyətli və strateji mənası olan addım kimi çox əhəmiyyətlidir. Müəllif yazır ki, bu gün milli və müasir dövlətçilik əsasən milli mənafenin, insan hüquqlarının və bəşəri dəyərlərin təcəssümünü ifadə edir. Bütün bunlar isə vətəndaş cəmiyyətinin, insan hüquq və azadlıqlarının, demokratiyanın timsalında daha aydın, daha şəffaf görünür.

Müəllifin qənaətinə görə, vitse-prezidentlik institutu faktiki olaraq hakimiyyətin qanadları arasında daha təkmil balans yaratmağa dəstək verir və həyata keçirilən bir sıra Konstitusiya dəyişiklikləri ilə harmoniya təşkil edir. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın bu məsul vəzifəyə təyinatı bir daha onu göstərir ki, səmərəli fəaliyyəti nəticəsində bu etimada layiq görülüb. Təkcə bir fakta nəzər salaq. Mehriban Əliyeva öz fəaliyyətində milli-mənəvi dəyərlərin dünya mədəniyyət sisteminə inteqrasiyasını ön plana çəkib, bütövlükdə, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun reallaşmasında müstəsna xidmət göstərir. Dünyada Mehriban Əliyevanın siyasi fəaliyyəti barədə yetkin rəy yaranıb və təqdir olunur.




Bu fəsildə, dövlət idarəçilik aparatının başında dayanan Prezident İlham Əliyevin apardığı milli ideyalarla zənginləşdirilmiş siyasət nəticəsində iqtisadiyyatı böyük sürətlə inkişaf edən, regionda aparıcı dövlətə çevrilən Azərbaycanın bütün Qafqazda əsas söz sahibinə çevrildiyi vurğulanır.

Bir sözlə, "Azərbaycanın dövlət idarəçiliyi: tarix və müasirliyin vəhdəti" çox zəngin araşdırmalarla, tarixi hadisələrin təhlili və yüksək peşəkarlıqla yazılmış, hüquq elminə yeni töhfələr verən bir monoqrafiyadır. Kitabın dili çox səlis və axıcıdır, bu, elə ilk vərəqdən oxucunun diqqətini çəkir. Monoqrafiyada 127 ədəbiyyatdan, 35 qanun, qərar və fərmandan, 65 elmi mənbədən istifadə olunub.

**Salman ALIOĞLU,**
**yazıçı-publisist.**